Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Qüvvət elmdədir, başqa cür heç kəs
# Heç kəsə üstünlük eyləyə bilməz!

**Beynəlxalq Savadlılıq Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar mədəniyyət işçisi**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Qüvvət elmdədir, başqa cür heç kəs, Heç kəsə üstünlük eyləyə bilməz! -** 8 sentyabr Beynəlxalq Savadlılıq Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed Nərgiz.M; ixt.red. və burax. məsul Ş. Qəmbərova; - Bakı:  F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 34s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Tərtibçidən:

Ulu öndərimiz Heydər Əliyevin *"Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır"* fikrinə diqqət yetirsək görərik ki, xalqımız, həmişə ziyalılığa, elmə, mədəniyyətə sahib olmuş, hər zaman elmə yiyələnmək üçün səy göstərmişdir. Çünki elm, savad, bilik həmişə sirli qapıların, yüksəlişin açarı olmuş, savadsızlıq cahillik, nadanlıq, isə sağalmaz bəla hesab edilmişdir. Məhz cahillikdən, cəhalətdən, qaynaqlanan dünyada baş verən bütün faciələr - müharibələr, qırğınlar, xəstəliklərə görə ağıllı, savadlı insanlar ən çətin anda vəziyyətdən çıxmağa, hadisələrin gedişini yaxşılığa, əmin-amanlığa, tərəqqiyə doğru istiqamətləndirməyə kömək edirlər. "Savadlı olmaq üçün 10 dənə kitabı oxumaq kifayət edər, amma həmin kitabları tapmaq üçün minlərlə kitab oxumaq lazımdır" deyilən cəmiyyətdə bir deyimdə vardır. Hətta kitab və mütaliənin cəmiyyətdə vacibliyini nəzərə alaraq elm və savadlılığa, mütaliə və kitaba aid müxtəlif tarixi günlərdə təsis edilmişdir. 2018-ci ildən Azərbaycan Respublikası Prezidentinin imzaladığı sərəncama əsasən qeyd ediln *"Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü", "Dünya Elm günü", Beynəlxalq savadlılıq günü* və s. bu kimi günlərin təsis edilməsində məqsəd gəncləri elmə, mütaliəyə savadlılığa həvəsləndirmək, onları savadlı olmağın əsas vasitəçilərindən olan kitaba maraq oyatmaqdır. Bu günlərin sırasında sentyabrın 8-i YUNESCO tərəfindən qeyd edilən Beynəlxalq Savadlılıq Günü ilk dəfə 1966-cı ildə, Təhsil Nazirlərinin Ümumdünya Konfransının təşəbbüsü ilə təşkil edilmişdir. Bu günün təsis edilməsi 1965-ci ilin sentyabr ayında Tehran şəhərində savadsızlılığın ləğv edilməsinə dair Təhsil Nazirlərinin Ümumdünya Konfransına təsadüf edir. Təqdim etdiyimiz metodik vəsaitdə mövzu ilə bağlı bir sıra tədbirlərin ssenarisi, Məlumat - biblioqrafiya şöbəsi tərəfindən hazırlanmış ədəbiyyat siyahısı yer alır.

## Giriş:

Əsrlər boyu Azərbaycan alimləri elmi təfəkkürün müxtəlif sahələrində meydana gətirdikləri əsərlərlə bəşəriyyətin elmi-mədəni yüksəlişinə böyük xidmətlər göstərmiş, elmin qorunub saxlanması işinə dəyərli töhfələr vermişlər. Cəmiyyətdə insanlar arasında belə bir deyimdə var ki, "Yer üzünün sakini olan hər bir insan həm öz ölkəsinin vətəndaşı, həmdə yer planetinin sakinidir". Cəmiyyətdə hər bir savadlı kəs fəal vətəndaş mövqeyi nümayiş etdirməyi, öz sahəsində fikrini deməyi bacarmalı və müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edə bilməlidir. Savadlı, elmli insanlar işlərində nə qədər çətinliyə düşsələr də, zamanla irəliləyib inkişafa nail olmağı bacarırlar. Mədəni inkişafın əsas göstəricilərindən biri olan savadlılıq əhalinin sosial – mədəni inkişafına əsas olub, insanın ana dilinin qrammatik normalarına uyğun olaraq oxuma və yazı vərdişlərinə müəyyən malikolma dərəcəsidir. Savadlılıq bəşəriyyətdə uşaqlar, gənclər və yaşlılar üçün lazımlı bir dəyərdir. Buna görə insanları savadlı olmağa, mütaliəyə səsləyən bir gün olan "Beynəlxalq Savadlılıq Günü" (International Literacy Day) də təsis edilmişdir ki, bu gün-Birləşmiş Millətlər Təşkilatı sistemində qeyd olunan beynəlxalq tarixlərdən biridir. Bu tarix 1965-ci ilin sentyabrında Tehranda keçirilmiş "Təhsil nazirlərinin savadsızlığın ləğvi üzrə ümumdünya konfransı"da UNESCO-ya tövsiyəsi əsasında 1966-cı ildə təsis edilmişdir. Günün təsis edilməsində əsas məqsəd savadlılığın insanların və cəmiyyətin həyatında əhəmiyyətini bir daha yada salmaq və onun yayılması sahəsində səylərin gücləndirilməsinin vacibliyini çatdırmaqdır.

UNESCO-nun bir neçə il qabaqkı məlumatlarına görə, dünyada 15 - 24 yaş arasında olan gənclərin üstünlük təşkil etdiyi insanlar hələ də savadlılıqdan məhrumdurlar. Uşaq və yeniyetmələrin hər on nəfərindən altısı oxuma və saymaq vərdişlərinin minimal

səviyyələrinə çata bilmirlər. Təxminən 267 milyon uşaq məktəbə getmir. Bu səbəbdən bəzi ölkələrdə ilk növbədə, məktəbdən kənarda qalan qadınlar və qızlar arasında savadlılığın yayılması proqramlarının genişləndirilməsinə şərait yaradılır. Hər il 8 sentyabrda qeyd edilən bu tarixdə, əsasən, bu problemlərin həlli, savadsızlığın ləğv edilməsi üçün müzakirələr aparılır.

Hər il müəyyən mövzulara həsr edilən "Savadlılıq günü", *"Savadlılığın qadınlar üçün əhəmiyyəti", "Savadlılıq şəxsi imkanları genişləndirir", "Savadlılıq və sağlamlıq", "Savadlılıq davamlı inkişafı təmin edir", "Keçmişi oxumaqla, gələcəyi yazırıq", "Rəqəmsal dünyada savadlılıq", "Savadlılıq və vərdişlərin inkişafı"* və s. başlıqlar altında sərgilər təşkil edib, tədbirlər keçirmək məqsədəuyğundur. 2014 - cü ildə mövzusu *"Savadlılıq və Dayanıqlı İnkişaf"*, 2015-ci ildə isə *"Savadlılıq və Dayanıqlı Cəmiyyət*" mövzusunda ölkəmizdə möhtəşəm tədbirlər təşkil olunmuşdur.

## Keçiriləcək tədbirlər:

Savadlılıq əhalinin sosial – mədəni inkişafının əsas göstəricilərindən biri olub, insanın ana dilinin qrammatik normalarına uyğun olaraq oxuma və yazma vərdişlərinə müəyyən malikolma dərəcəsi olaraq, bəşəriyyətdə hamı üçün – uşaqlar, gənclər və yaşlılar üçün lazımlı bir dəyərdir. Bu günlə bağlı hər il kitabxanalarda müxtəlif tədbirlər keçirilir. İlk öncə oxucularla bu günün təsis edilməsi ilə bağlı *"İnkişaf və tərəqqinin əsas təməli"* adlı günün mahiyyətindən danışacağımız söhbət təşkil edə bilərik. Bu gün haqqında söhbət zamanı oxucuları mütaliəyə həvəsləndirmək məqsədilə kitab sərgisi təşkil edilir. Sərgilərin təşkilində kitabları yaxından tanımaq oxucuları kitab haqqında tam mütaliəyə

həvəsləndirəcəkdir. Sərgidə uşaqların mütaliəsi üçün savadlılığa çağıran ensiklopedik kitablar, ədalətlilik, yaxşılıq, tarixi, coğrafi bilikləri əks etdirən maraqlı kitablar yerləşdirə bilərik.

**Sərgi:**

Məktəbəqədər yaşlı oxucularla kitabxanada bu mövzuda nağıl saatı təşkil edə bilərik.

Nağıllarımız haqqında danışanda gözümüzün önünə ilk öncə üzü nurlu nənələr gəlir. Nənələrin danışdığı nağıllarda baş verən hadisələr həmişə uşaqların diqqətini cəlb edib. Onların seçdiyi qəhrəmanlar isə heç bir vaxt körpələrimizin yaddaşından silinmir. Unudulmayan nağıl qəhrəmanlarımz haqqında böyüsəkdə həmişə düşünürük. Axı bizlər necə unudaq nənələrimizin şirin-şirin danışmış olduğu Məlikməmməd, Keçəl, Tıq-tıq xanım, Təpəgöz haqqındakı nağılları? Uşaqlarla keçirilən nağıl saatlarıda bu baxımda gələcəkdən onların yaddaşında mübariz, xeyirxah, təvəzökar nağıl qəhrəmanları kimi formalaşmasına kömək edir.

## Savadlılıq, elm haqqında deyilmiş fikirlər:

Uşaqlığımın heç bir günü sevdiyim kitabla keçirdiyim günlər qədər dolğun olmadı.

**Marcel Proust,**
*fransız yazıçısı*

Oxumaq və yazmaq indiyə qədər tapılmış ən gözəl meditasiya formalarıdır. Tarixdə yaşamış ən savadlı mütəfəkkirlərin yazdıqlarını oxumaqla biz öz fikrimizi meditasiya edirik.

**Kurt Vonnegut,**
*Amerika yazıçısı*

Ruhumuza varlı olmaq imkanı vermək üçün oxumalıyıq.

**Henry Miller,**
*Amerika yazıçısı*

Yatmazdan əvvəl oxumağa yaxşı bir kitabın olduğunu bilmək zövqlərin ən böyüyüdür.

**Vladimir Nabokov,**
yazıçı

Oxumaq və yazmaq da başqa şeylər kimi təcrübəylə inkişaf edir. Gənc oxucular və yazıçılar olmasa, deməli, sabah yaşlı oxucu və yazıçılar da olmayacaq. Savadlılıq və buna bağlı olan demokratiya da ölüb gedəcək.

**Margaret Atwood,**
*Kanadalı şair*

Oxuyanda, yazanda nə tökürsənsə aşına, o da çıxır qaşığına. Qədim məsəldir, amma həqiqətdir.

**Zadie Smith,**
*ingilis yazıçısı*

Oxumaq başqa insanın dərisinə, səsinə, ruhuna girməyin yeganə yoludur.

**Joyce Carol Oates,**
*Amerika yazıçısı*

"Öyrənməyən insanın öyrənə bilməyəndən heç bir fərqi yoxdur."

**Mark Tven**
*Amerika yazıçısı*

“Mən sərbəst və möhkəməm. Əgər kitab oxuyan olmasaydım, həqiqətən də bu cür hiss edə bilməzdim. Allaha şükür ki, öyrənə bilirəm, əslində müxtəlif kişilərin ağlına toxunmuşam”.

**Walter Tevis Mockingbird,**
*Amerikalı romançı*

“Yazıçılığı qazanmaq psixoloji və mexanik olaraq oxu və yazı texnikasına üstünlük verməkdən ibarətdir, bu üsulları şüur baxımından üstün tutmaq, oxuduğu şeyi anlamaq və anlayışlarını yazmaqdır: qrafiklə ünsiyyət qurmaqdır. cizgi, söz və ya heca hekayələr - cansıxıcı obyektlər varlıqlı bir kainata bağlanmamışdır - əksinə, yaradılış və yenidən yaranma münasibətidir, özünü dəyişmə kontekstində müdaxilə mövqeyini yaradır.”

**Paulo Freire,**
filosof

Sənə öyrənməyi öyrədən kimi, yəqin ki, durmadan azad olacaqsan.”

**Frederik Duqlas,**
*Amerikalı yazıçı*

Təlim əslində dünyanı dəyişdirmək üçün ən təsirli silahdır.

**Nelson Mandela,**
*Afrikanın ilk qaradərili prezidenti*

“Dünyada heç bir şifahi mədəniyyət və ya əsasən ağızdan yayılmış bir mədəniyyət yoxdur ki, savadlılıq olmadan sonsuza qədər güclərin güclü bir kompleksi deyildir”.

**Walter J. Ong,**
*“Söz və savadlılıq: Word'ün texnologiyası”, 1982*

“Savadlılıq, məlumat maliyyə sisteminin ən əsas xarici puludur.”

**Barak Obama**

Amerika Birləşmiş Ştatlarının 44-cü Prezidenti




Savadlılıq günü ilə əlaqədar oxucuları mütaliəyə həvəsləndirmək üçün müxtəlif tədbirlər təşkil edə bilərik. Onlarla içərisində əyləncəli oyunlar, suallar yer alan kitablardan istifadə etməklə viktorinalar keçirə bilərik. Ersin Osman Söyütlünün müəllifi olduğu “Əyləncəli suallar” kitabı müəllimlərə, kitabxana və başqa mədəniyyət işçilərinə bu işdə kömək edər. Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitab məktəbyaşlıların mütaliəsində həm əyləncəli bir kitab həmdə zəka, məntiqi inkişaf etdirmək üçün bir vasitədir. Bu maraqlı viktorinalardan birini təqdim edirik.

**Kitabxanaçı:** Əziz uşaqlar atalar sözü bilirsinizmi? Bir neçəsini gəlin birlikdə söyləyək. İndi isə gəlin bəzi atalar sözlərimizi yada salaq, bilmədiklərimizi isə birlikdə öyrənək. İştirakçılara hər birinə bu şəkildə bir atalar sözü yazılmış kart paylanır.

1 Allahdan .... kəsilməz

2. Tələsən...... təndirə düşər

3. Dost ..... tanınar

4. Məsləhətli ..... gen olar

5. Yüz ölç .... biç.

6. Dəmiri ..... döyərlər.

7. Əldən qalan .... qalar.

8.Bağa baxarsan .... bağ olar, baxmazsan.... olar

9.El bir olsa.... oynadar yerindən.

***Mütaliə həftəsi:***



Kitabxanada 8 sentyabr Beynəlxalq Savadlılıq gününün mahiyyətini oxuculara çatdırmaq məqsədilə *“Yaxşı bir şey öyrənmək üçün çalışaq”, “Qələmlə yanaşı mütaliə ilə öyrənək”, Ən şox sevdiyim janr* və s. başlıqlı mütaliə həftəsi təşkil edə bilərik. Mütaliə həftəsində oxuculara kitabxanada olan dedektiv, fantastik, klassik, yazıçı və şairlərin kitablarını mütaliə üçün tövsiyə edə bilərik.

Kiçikyaşlı oxucularla isə *“Bilməcələri həll edək”, “Düşünməyi öyrənək”, “Məntiqimizi necə inkişaf etdirək?”* başlıqlı əyləncəli viktorinalar keçirə bilərik. Viktorinada aşağıdakı kitablardan istifadə edə bilərik:















https://drive.google.com/file/d/1xYs1iDFnBvaeobdMM8--I8TkDF3PAXmd/view

Kitabxanada "Savadlılıq nədir?"başlıqlı dəyirmi masa da təşkil etmək olar.

**Dəyirmi masa:**

Dəyrimi masa rayonların mədəniyyət şöbələrindən, müxtəlif təşkilatlardan dəvət edilmiş qonaqların, kitabxanaçıların iştirakı ilə təşkil edilə bilər. Dəyirmi masada kiçikyaşlı və böyükyaşlı oxucuları, gənc nəsli mədəniyyət, incəsənət, elm və s. sahələrdə savadlı, elmli olmağın yollarından və gələcək nəsli savadlı olmağa, bilikli olmağa, necə yönləndirməkdən danışa bilərik. Azərbaycan xalqının mədəniyyəti, incəsənəti, folkloru, unudulmuş milli adət-ənənələrimizin necə təbliği, vətən, torpaq sevgisi, ana dilimizə sevgi və dilimizin şirinliyi və s. mövzuların kitabxanalarda necə təbliğini müzakirə edə bilərik. Dəyirmi masanı "Savadlılıq və ana dili", "Savadlılıq nədən başlayır?", "Savadlılıq və yazmaq oxumaq bacarığı", "Savadlılıq və hüquq" və s başlıqlar altında keçirə bilərik.

Savadlılıq mövzusunda müxtəlif fikirlər söyləmək olar, onlar mahiyyətcə bir-birinə yaxındırlar. Bu fikirlərin bəzilərinə nəzər yetirək :

1. Savadlılıq ana dilinin qrammatik normalarına uyğun olaraq insanın sahib olduğu vərdişlərin müəyyən səviyyəsidir.

2. Savadlılıq əhalinin sosial mədəni inkişafının mühüm göstəricilərindəndir. Savadlılıq anlayışının məzmunu tarixən insanın ictimai inkişafina verilən sosial tələbin yüksəlməsinə uyğun olaraq dəyişir, inkişaf edir.
3. Savadlılıq yazmaq, oxumaq, saymaq kimi elementar bacarıqlardan ictimai zəruri bilik və bacarıqların (funksional savadlılığın) minimum həddinə doğru inkişaf etmişdir və bu hədd daima inkişaf edir, dəyişir. Savadlılıq dayanıqlı inkişafın təmin edilməsi üçün zəruri elementlərdəndir.
4. Savadlılıq dayanıqlı inkişafin əsas amilidir. Savadlılıq vərdişləri dayanıqlı cəmiyyətin yaradılması üçün zəruri olan daha geniş bilik bacarıq və dəyərlərin əldə edilməsinə imkan verir. Dayanıqlı inkişafın mühüm sahələri kimi səhiyyə və kənd təsərrüfatı üzrə tərəqqi savadlılığın yayılmasında mühüm amildir.
5. Savadlılıq iqtisadi artım, sosial inkişaf və ekoloji inteqrasiya məsələlərində düzgün qərarlar qəbul etməyə imkan verir. Savadlılıq həyat boyu öyrənmənin əsasını təşkil edir. Savadlılıq dayanıqlı və inkişaf edən cəmiyyətlərin yaradılmasında mühüm rol oynayır.
6. Savadlılıq insan hüquq və azadlıqlarının mühüm elementidir. Bir çox ölkələrin, o cümlədən bizim ölkənin konstitusiyasında vətəndaşın təhsil hüququ xüsusi olaraq qeyd edilib.
7. Savadlılıq şəxsi azadlıq və imkanların genişlənməsinin də mühüm vasitəsidir. Savadlılıq fərdi insan potensialının və ümumən cəmiyyətin inkişafının mühüm alətidir. Təhsilin davam etdirilməsi imkanları da ilkin savadlılıq səviyyəsi ilə müəyyən edilir.

**Mövzu icmalı:**




Bu gün savadlılıq dedikdə artıq İKT savadlılığı, kompüter mədəniyyəti, alqoritmik mədəniyyət də nəzərdə tutulur. İndi savadlı insan internetdən zəruri məlumatları əldə etməyi, ondan öz praktik fəaliyyətində istifadə etməyi, bir sözlə, İKT vasitəsi ilə informasiya əldə etməyi, emal etməyi, saxlamağı, göndərməyi, qəbul etməyi bacarmalıdır.

Bu mövzu ilə bağlı kitabxanada mövzu üzrə icmal təşkil edə bilərik. 8 sentyabr Beynəlxalq Savadlılıq Günü ərəfəsində təşkil edilən icmalda oxuculara bu günün mahiyyəti, təşkili ilə bağlı ətraflı məlumat verə bilərik. İcmalda hər il müəyyən mövzuya həsr edilən Savadlılıq günün mahiyyətindən danışa bilərik. *"Savadlılığın qadınlar üçün əhəmiyyəti", Savadlılıq şəxsi imkanları genişləndirir", "Savadlılıq və sağlamlıq", "Savadlılıq davamlı inkişafı təmin edir", "Keçmişi oxumaqla, gələcəyi yazırıq", "Rəqəmsal dünyada savadlılıq", "Savadlılıq və vərdişlərin inkişafı", "Savadlılıq və çoxdillilik"* və s. şüarlar altında təşkil olub.

**Böyük yaşlı oxucularla təşkil edilmiş söhbət**



Söhbətdə məqsəd oxuculara UNESCO tərəfindən 1967-ci ildən qeyd olunan bu əlamətdar günün məqsədi, savadlılığın insanlar, icmalar və ümumilikdə cəmiyyət üçün faydasına diqqəti cəlb etməkdir. Əldə edilən nailiyyətlərə baxmayaraq, savadlılıq sahəsində problem aktual olaraq qalır, çünki

dünyada azı 773 milyon yaşlı insanın baza savadı yoxdur. Bu məlumatları təqdim edə bilərik.
Pandemiya səbəbindən keçirilən virtual müzakirələrdə bu əlamətdar günlə bağlı Beynəlxalq Savadlılıq Mükafatı da onlayn təqdim edilmişdir.
Azərbaycanda təhsilə ildən-ilə dövlət qayğısı artırılmasının nəticəsidir ki, indi ölkəmizdə savadlılıq yüz faiz təmin olunmuşdur. Hazırda Azərbaycanda təhsil sistemində beynəlxalq standartlara uyğun fundamental islahatlar aparılır, təhsilin bütün pillələri üzrə dövlət proqramları uğurla həyata keçirilir. Təhsilimizin milli, ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında inkişafına geniş imkanlar yaradılıb.



UNESCO-nun saytına istinadla xəbər verilir ki, Beynəlxalq Savadlılıq Günü COVID-19 böhranı şəraitində və ondan sonrakı dövrdə tədrisə və təlimə həsr edilməklə pedaqoqların roluna və tədris metodlarının dəyişməsinə xüsusi diqqət ayırmışdır.
Bu günün pandemiya dövrü ilə bağlı mövzusu, insanın ömür boyunca təhsil alması məsələsini əhatə edərək, ictimaiyyətin diqqətini gənclər və yaşlı insanlara yönəldir. Mövcud olan bu uyğunsuzluq ya savadı olmayan, ya da yetərincə savadı olmayan və bu səbəbdən müxtəlif çətinliklərlə qarşılaşan gənclərin və yaşlıların təhsil almasına mənfi təsir edib.

Bu əlamətdar gün müəllimləri dəstəkləmək və tədrisə kömək göstərə biləcək səmərəli, sistemlər, idarəçilik metodları və tədbirlərin görülməsində pedaqoqların, mədəniyyət sahəsində çalışanların  rolunu vurğulamaq üçün önəmlidir.

***Hekayə saatı:***




Savadlılığın artırılmasında  kiçikyaçlıların yazıb-oxumağı öyrənməsi ilə yanaşı  onları mütaliəyə həvəsləndirən, stimul verən maraqlı hekayələrin kitabxanada onlara çatdırılmasıda yerinə düşər. Kitabxanada kiçikyaşlıların yaş səviyyəsinə uyğun qruplaşdırılmış *"Hekayə saatı"* təşkil edə bilərik. "Hekayə saatında" "Hekayələrlə dəyərlər" silsiləsindən olan kitabları təqdim edə bilərik. Bu topluda hər bir hekayə kiçikyaşlılar üçün maraqlı hadisə  və əhvalatlardan ibarətdir.



Bu əhvalatlar uşaqlara haqq-ədaləti, düzgünlüyü öyrədir, onlara bu prinsiplərə riayət etməyi aşılayır. Bununla bağlı oxucularla *"Gözlənilməz uğur"* adlı hekayəni səhnələşdirə bilərik. Nağıl Yaponiyada sol qolunu itirən uşağın həyatından bəhs edir. Uşağın həyatından narahat olan atası onu idman məktəbinə yazdırır. Uşaq müəlliminin həvəsli olduğunu görüb fikrə gedir və müəlliminə deyir:

**Uşaq:** Müəllim, axı mənim bir qolum yoxdur. Bu halımla mən nə edə bilərəm ki?!

**Cudo müəllimi:** Hələ bir dərslərdə iştirak elə, onda bilərsən, bacararsan, yoxsa yox.

Müəllimin bu sözlərini eşidən uşaq ürəklənir. Amma bir müddət keçəndən sonra uşaq sıxılmağa başlayır. Çünki üç ay idi ki, eyni fəndi təkrarlayırdı. Artıq onun hövsələsi qalmamışdı.

**Uşaq:** Sol qolum yoxdur deyə mənə başqa fənd öyrətmirsiniz.
**Müəllim:** Sən elə bu fəndi öyrənməlisən. İndi nə demək istədiyimi, niyə yalnız bu fəndi öyrətdiyimi başa düşmürsən. Birazda səbr eləsən niyə belə etdiyimi də anlayarsan.
*Bir neçə ay sonra cudo yarışları başladı. Uşaq da, müəllim də çox həycan keçirirdilər. Valideynlər də tamaşaçıların arasında idilər. Yarış başlayır. Səhnəyə idmançılar gəlib güləşirlər. İlk dəqiqələrdə uşaq rəqibini yerə vurur. Hamını uşaq öz yarışı ilə təəccübləndirir.*
*Finalda güclü rəqiblə qarşılaşan uşaq müəllliminə deyir:*
***Uşaq:** Ona qalib gələ bilmərəm , yarışa çıxmaq istəmirəm.*
***Müəllim:** Xeyr, yarışı davam etdirməlisən . İnan ki, ona qalib gələcəksən.*
*Fasilədən sonra səhvə yol verən rəqibinə qarşı uşaq yeganə fəndini işlədərək onu yerə vurdu. Buna hamı məəttəl qalmışdı. Uşaq müəllliminə deyir:*
***Uşaq:** Müəllim, necə oldu ki, bircə fəndlə rəqiblərimə qalib gələ bildim?*
***Müəllim:** Sən cüdonun ən çətin fəndini üzün müddətdir məşq edirsən.*
*Uşaq müəllimini qucaqlayıb təşəkkür edir.*

Pandemiyadan sonra sentyabrın 8-də Parisdə keçirilən virtual konfransda UNESCO COVID-19 pandemiyasından sonrakı dövrdə və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 4-cü bəndinə nail olmaqda gənclər və yaşlılar arasında tədris və təlimin yenidən qiymətləndirilməsi məqsədilə ümumi qlobal diskussiya təşkil edib. Bu əlamətdar gündə Beynəlxalq Savadlılıq Mükafatı da onlayn təqdim edilib.
Qeyd edək ki, Azərbaycanda təhsilə dövlət qayğısı ildən-ilə artmışdır. Bu qayğının nəticəsidir ki, indi ölkəmizdə savadlılıq yüz faiz təmin olunmuşdur.

**Savadllıq necə yaranır:**

Dünyada biliklərin əksər hissəsi ya birbaşa yolla, ya da bu gün bəşəriyyətin əksəriyyətinə xas olan vasitəçilərin köməkliyi ilə ötürülür. Müasir dövrdə kitabla yanaşı Google və Wikipedia hər bir şəxsdə İnternetlə maraqlanma bilik və savadlılıq səviyyəsini birazda sürətləndirir. İnternet vasitəsi ilə proqramlardan yararlanmaqla istədiyimiz məlumatları, lazım olan kitabların pdf variantını tapıb istifadə edə bilirik. Bu günkü internet imkanlarının bir çox universitet kursları təhsil sistemlərinə çıxışının olması savadlı olmağa əsasdır. UNESCO-nun məlumatlarına görə elm və texnologiyanın inkişafı ilə əlaqədar bu gün 15 yaşına qədər gənclər arasında savadlılıq səviyyəsi 1990-cı ildə 83,4%-dən 2011-ci ilə 89,5%-ə yüksəlmişdir;

15 yaşdan yuxarı böyüklər arasında isə savadlılıq səviyyəsi 1990-cı ildən 75,7%-dən 2011-ci ilə kimi 84,1%-ə yüksəlmişdir. UNESCO-nun əhalinin savadlığını qiymətləndirmələrinə görə isə, 2015-ci ildn əhalinin böyük yaşlı hissəsinin savadlılıq səviyyəsi 86%-ə, gənclər arasında isə savadlılıq səviyyəsi 92%-ə yüksəlib. Gənclərlə yanaşı Məktəbəqədər təhsil müəssisələrini bitirən şəxslərin, İbtidai təhsil müəssisələrini bitirən şəxslərin Məktəb yaşlı uşaqlarında savadlılıq dərəcələri qalxmışdır.

Mədəniyyət müəssisəsi olaraq kitabxanalarda oxucuların tarixi biliklərinin artırılmasına kömək edə biləcək tədbirlər təşkil edə bilərik. Oxucularla təşkil edilmiş tədbirdə kitabxanaçı onlara savadlı cəmiyyətdə yaşamağın üstünlüklərindən danışa bilər. Kompüter və təhsilin birləşdirilməsi fundamental şəkildə dəyişməkdədir.

Sentyabrın 8-də bütün dünyada qeyd olunan Beynəlxalq Savadlılıq Günü hökumətlərə və qeyri-hökumət təşkilatlarına savadlılığın səviyyəsini artırmağa, bu prosesin qarşısında yaranan maneələri aradan qaldırmağa imkan verir. Bu proses

BMT-nin 2030-cu ilədək dayanıqlı inkişaf Hədəflərindən biridir. Uşaq məktəbə getməzdən əvvəl, artıq ilk məktəb fənləri ilə tanış və tədris prosesinə asanlıqla inteqrasiya edilməsini tələb edir. Məktəbəqədər uşaqların tədrisinə hazırlıq orta sinifdə başlayır, bir formada, daha çox təhsilin qarşısını ala biləcək və vaxtında düzəldən problemləri müəyyən etməyə çalışır.

Son bir neçə onillikdə qlobal savadlılıq dərəcələri əhəmiyyətli dərəcədə artdığından bu yüksəlişin əsas səbəbləri bir çox inkişaf etməkdə olan ölkələrdə təhsil sisteminin təkamülündən və təhsilin əhəmiyyətinin daha çox qəbul edilməsindən irəli gəlir. Yenə də bir çox dövlətlər öz əhalisini yaxşılaşdırmaq, lazımi infrastrukturu qurmaq və şagirdlərin öz məktəblərində müntəzəm qeydiyyatını təmin etmək üçün təhsil resursları ilə təmin etməkdə çətinlik çəkirlər.

Kitabxanada oxucuların savadlı olmağa marağının artırılması üçün müxtəlif cəlbedici tədbirlər həyata keçirmək olar. Onlara savadlılıq haqqında məlumat verib onun nə üçün insana lazım olduğu haqqında danışırıq. Bu məqsədlə keçirilən *"Savadlılıq və biz"* adlı müzakirəni hazırlaya bilərik.

Məlum olduğu kimi, 2014 - cü ildə beynəlxaq Savadlılıq Gününün mövzusu "Savadlılıq və Dayanıqlı İnkişaf" olmuşdur. 2015-ci ildə isə Beynəlxaq Savadlılıq Gününün mövzusu "Savadlılıq və Dayanıqlı Cəmiyyət" olub. Əziz oxucular gəlin görək savadlılıq nədir? Savadlılıq haqda müxtəlif fikirlər söyləmək olar, onlar mahiyyətcə bir-birinə yaxındırlar. Bu fikirlərin bəzilərinə gəlin nəzər yetirək:

İlk növbədə savadlılıq ana dilinin qrammatik normalarına uyğun olaraq insanın sahib olduğu vərdişlərin müəyyən səviyyəsidir.

İkinci isə savadlılıq əhalinin sosial mədəni inkişafının mühüm göstəricilərindəndir. Savadlılıq anlayışının məzmunu tarixən insanın ictimai inkişafina verilən sosial tələbin yüksəlməsinə uyğun olaraq dəyişir, inkişaf edir.

Başqa yöndən baxsaq savadlılıq yazmaq, oxumaq, saymaq kimi elementar kimi bacarıqlarla yanaşı, dayanıqlı inkişafın təmin edilməsi üçün zəruri elementlərdəndir. Başqa tərəfdən savadlılıq dayanıqlı inkişafin əsas amili olub dayanıqlı cəmiyyətin yaradılmasi üçün zəruri olan daha geniş bilik bacarıq və dəyərlərin əldə edilməsi deməkdir. Savadlılığın insan hüquq və azadlıqlarının mühüm elementi olduğundan, bizim ölkənin konstitusiyasına uyğun olaraq vətəndaşın təhsil hüququ xüsusi olaraq qeyd edilib. Həmçinin qeyd edilir ki, Savadlılıq şəxsi azadlıq və imkanların genişlənməsinin də mühüm vasitəsidir. Savadlılıq fərdi insan potensialının və ümumən cəmiyyətin inkişafının mühüm alətidir. Təhsilin davam etdirilməsi imkanları da ilkin savadlılıq səviyyəsi ilə müəyyən edilir. Bu gün savadlılıq dedikdə artıq İKT savadlılığı, kompüter mədəniyyəti, alqoritmik mədəniyyət də nəzərdə tutulur. İndi savadlı insan internetdən zəruri məlumatları əldə etməyi, ondan öz praktik fəaliyyətində istifadə etməyi, bir sözlə, İKT vasitəsi ilə informasiya əldə etməyi, emal etməyi, saxlamağı, göndərməyi, qəbul etməyi bacarmalıdır. Oxucularla mövzu ətrafında *"Savadlılıq vəziyyətinizi necə qiymətləndirirsiniz?"* başlığı ətrafında sual-cavab təşkil edə bilərik. Sual-cavab ətrafında savadlılığın ən yüksək olduğu ölkələrlə tanış ola bilərik:

**10. Estoniya**

Estoniya əhalisinin 99,8%-i savadlıdır. Ölkədə effektiv təhsil sistemi var, fəal təhsil müəssisələri var. Yerli hökumətlər məktəblər üçün subsidiyaların yaradılmasına, ölkənin əksər hissəsi üçün keyfiyyətli təhsilin təmin edilməsinə cavabdehdirlər. Səlahiyyətlərin aşağı səviyyəyə bölünməsi dövlətdə işləyən təhsil müəssisələri üzərində daha böyük nəzarət yaratmışdır.

**9. Kuba**

Kuba təhsil sektorunda heç də geri qalmır. Son göstəricilər göstərir ki, ölkə bu göstəriciyə malik ölkələr sırasındadır. Dünyada ən yüksək savadlılıq səviyyəsi, 99,8% səviyyəsindədir. Ölkə ümumi gəlirinin 10%-ni təhsil sektoruna xərcləyir. Onun təhsil siyasəti marksist ideologiyaya əsaslanır, cəmiyyətin bütün təbəqələri üçün təhsil verir.

**8. Latviya**

Latviyada 15 yaşa qədər təhsil icbaridir. İbtidai, orta və ali təhsilin standartları qənaətbəxşdir və Ukrayna, Rusiya və Litvadan olan bir çox tələbə ali təhsil sahəsində Latviyaya üz tutur. Ölkənin bəzi məktəb və universitetlərində hər il minlərlə tələbə qəbul olunur.

**7. Azərbaycan**

Azərbaycanın təhsil sistemində inqilab hələ sovet dövründə başlamışdır. Həmin dövrdə bir çox məktəb və universitetlər yaradılmışdır. Hazırda ölkədə 36 dövlət və 15 özəl ali məktəb fəaliyyət göstərir. Hesablamalar ölkədə savadlılığın 99,8% olduğunu göstərir.

**6. Norveç**

Norveç yaxşı qurulmuş və davamlı təhsil sisteminə malikdir. Əsas və ali təhsil təkcə yerlilər üçün deyil, həm də dünyanın müxtəlif yerlərindən öz təhsillərində Norveç ali təhsili almaq istəyən digər insanlar üçün pulsuzdur.

**5. Lüksemburq**
Lüksemburqun təhsilinin əsas elementi onun üçdillilik faktorudur: təhsil üç dildə, ingilis, alman və fransız dillərində verilir. Digər Avropa ölkələri arasında Lüksemburqən yüksək savadlılıq göstəriciləri.

**4. Lixtenşteyn**
Ölkənin hazırkı təhsil sistemi 1971-ci ildə həyata keçirilən siyasətin nəticəsidir. O vaxtdan bəri hökumət ölkənin təhsil müəssisələrini gücləndirib. Savadlılıq səviyyəsi 100% təşkil edir. 2004-cü ildə təhsil siyasətində yeni dəyişikliklər edilib, psixoloji qüsurlu şagirdə xidmət göstərmək üçün əlavə təhsil müəssisələrinin əlavə edilməsi haqqında fərmandan yayınaraq.

**3. Qrenlandiya**
Qrenlandiyanın siyasi sistemi ölkənin təhsil və savad səviyyəsinə əhəmiyyət verir. ÜDM-in çox hissəsi təhsil peşəsinə diqqət yetirməklə təhsil müəssisələrinə xərclənir. 1980-ci illərdən praktiki biliklərə malik mütəxəssislərin yetişdirilməsi üçün təhsil peşə sistemi yaradılmışdır. Qrenlandiya 100% ilə dünyada ən yüksək savadlılığa malik ölkələrdən biridir.

**2. Finlandiya**
Finlandiya ÜDM-nin 7%-ni təhsil sektoruna xərcləyir. Hökumət təhsilin ölkə daxilində yayılması üçün bir çox təşəbbüslər həyata keçirmişdir. Əsas təhsildən ali təhsilə qədər bir çox müəssisə pulsuz təhsil verir.

**1. Andorra**

Andorra 100% faktiki olaraq savadlı əhalisi olan bir millətdir. Ölkə hökuməti təhsili icbari edən qanun və qaydaları həyata keçirməklə bu məqsədə çatmaqda mühüm rol oynamışdır. 6-16 yaş arası uşaqlar məktəbə getməlidir. Hökumət orta səviyyəyə qədər pulsuz təhsil verir. ÜDM-in böyük hissəsi ölkənin yüksək savadlılıq səviyyəsini təşviq edən təhsil sektoruna sərf olunur.

**Savadsızlıqla mübarizə: Azərbaycan Xalq Cümhuriyyəti dövrü:**

Ölkəmizdə savadsızlıqla mübarizə hələ müsəlman Şərqində ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlamışdır.

Azərbaycanın Birinci vitse-prezidenti *Mehriban xanım Əliyevanın* Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr olunmuş Qadınların V Forumunun iştirakçılarına təbrik məktubunda bununla bağlı deyilir. "Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti uzun ömür sürmədi, yaranmasından 23 ay sonra xarici hərbi təcavüzün qurbanı oldu. Azərbaycan uzun, 70 illik bir dövr üçün SSRİ-nin tərkibinə qatıldı. Buna baxmayaraq, qadınların vəziyyətində mütərəqqi dəyişikliklər davam edirdi. Savadsızlıq ləğv edildi, təhsil, səhiyyə və elmdə güclü inkişaf baş verdi. Azərbaycan qadınları təhsil və özlərinin yaradıcı potensialını reallaşdırmaq üçün yeni imkanlar qazandılar. Onlar özləri üçün yeni peşə və fəaliyyət sahələri öyrəndilər. Ölkəmizdə mülki və hərbi aviasiya pilotu, həkim, mühəndis, hüquqşünas və alim olan qadınlar ortaya çıxdılar".

Savadsızlığın ləğvi üçün Xalq Cümhuriyyətinin 1918-ci il 27 iyun tarixli dövlət dili haqqındakı qərarı bu sahədə xüsusi əhəmiyyət daşıyıb. Həmin il avqustun 28-də AXC-nin "Birinci və ikinci dərəcə ibtidai məktəblərin, həmçinin orta təhsil

müəssisələrinin milliləşdirilməsi haqqında" qəbul etdiyi qərar isə haqlı olaraq, dövlət dili haqqındakı qərardan sonra ana dilinə dövlət dili statusunu verən həlledici addım olmuşdur. Bu dövrdə milli məktəb ideyasının reallaşması üçün digər mühüm tədbirlərin də həyata keçirilməsi, türk dilində dərsliklər hazırlanması üçün komissiya yaradılması, həmin komissiyanın xətti ilə nəşr olunan dərsliklər savadsızlığın ləğvində mühüm rol oynayıb. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ərəb əlifbası islahatı üzrə yaradılan komissiyanın fəaliyyəti də təqdirəlayiq olub. Əlifba komissiyasının işini təqdir edən, ona öz təklif və layihələri ilə yardım edən ziyalılar - Y.V.Çəmənzəminli, A.Əfəndizadə və başqaları xalqın maariflənməsində fəal iştirak ediblər. AXC-nin maarif sahəsindəki ən mühüm xidmətlərindən biri – Bakı Dövlət Universitetinin açılması barədə parlament müzakirələri, bu müzakirələrdə universitetin təhsil sistemində dil məsələsinin də önəmli yer tutmasıdır.

AXC-nin süqutundan sonra 1923-cü il martın 18-də Azərbaycan Xalq Komissarları Soveti və Mərkəzi İcraiyyə Komitəsi tərəfindən "Azərbaycan SSR əhalisi içərisində savadsızlığın ləğvi haqqında" qərar qəbul edilməsi, savadsızlıqla mübarizə üçün Xüsusi Komitənin yaradılması da bu sahədə atılan ən mühüm addımlardan olub.

Cümhuriyyət dövründə Azərbaycan dili rəsmi dövlət dili elan edilsə də, real tarixi şərait üzündən uzunömürlü olmadı. Sovet dövründə isə yalnız 1956-cı ildə Ali Sovetin qərarı ilə respublika Konstitusiyasına Azərbaycan dili haqqında maddə əlavə edilib. Ulu öndər Heydər Əliyevin qətiyyəti və prinsipiallığı sayəsində 1978-ci ildə qəbul olunan Konstitusiyada Azərbaycan dili respublikada dövlət dili kimi təsbit edilib.

Ulu Öndərin təhsilə qayğısı nəticəsində 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və

ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlardan sonra Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765- dən 2117-yə çatdırılıb. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi. Bir məsələni də qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdı. Eləcə də dahi rəhbər azərbaycanlı gənclərin keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində təhsil almasına çalışıb və bu istiqamətdə əsaslı dönüş yaradıb. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilib ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaradıb.




**Raqifoğlu E. Azərbaycan cümhuriyyətini quranlar. - Bakı : Qələm, 2019. - 160 s. - (Uşaq ensiklopediyası).**
Kitabın biblioqrafik icmalını təşkil edə bilərik.
Beynəlxalq *Savadlılıq Günü,* - *International Literacy Day* adlandırılan bu gün haqqında videoçarxın nümayişi oxucularımız üçün çox maraqlı olar.

https://www.youtube.com/watch?v=7zhL5G-mxEA

**Heydər Əliyəv və savadlılıq**

Ulu öndər Heydər Əliyev hakimiyyəti illərində elm və təhsilin inkişafını diqqət mərkəzində saxlayıb, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmasını təmin edib. O, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirib, mühüm tarixi fərman və sərəncamlar imzalayıb. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi, ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaradıb. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılmasında müstəsna əhəmiyyətə malik dövlət sənədi hesab edilir.

Ölkəmizdə 1991-ci ilin dekabrında Azərbaycanda latın qrafikalı əlifbaya keçid barədə qərar qəbul edilsə də, onun icrası Prezident Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli Fərmanına əsasən tam gerçəkləşdi. Həmin ilin 1 avqustunda ölkə ərazisində bütün idarə-müəssisələr, təşkilatlar, Azərbaycan dilində bütün nəşrlər latın qrafikalı əlifbaya keçdi.

2001-ci ilin 9 avqustunda ulu öndər Heydər Əliyev "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərman imzaladı.

Təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində Ulu Öndərin siyasətini davam etdirən Prezident İlham Əliyevin bu istiqamətdə apardığı işlər uğurla davam etdirilir. Ölkə başçısının 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" təsdiq edilib. Dilin inkişafını və ədəbi dil normalarının qorunmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi, lüğət tərkibinin və qrammatik normaların sistemləşdirilməsi Dövlət Proqramının əsas vəzifələrindəndir. Sənəddə müvafiq təşkilatların 2020-ci ilədək görəcəyi işlər əksini tapıb. Bu sıraya elmi, bədii və publisistik əsərlərin orijinaldan tərcüməsi, eləcə də filmlərin dublyajı sahəsində qüsurların aradan qaldırılması üçün tədbirlərin müəyyənləşdirilməsi, Azərbaycan dilinin düzgün işlədilməsi və onun təmin olunması üçün müvafiq internet resurslarının yaradılması və s. məsələlər daxildir.

Bir sözlə, 71 il əvvəl müsəlman Şərqində savadsızlığın ləğvi istiqamətində mühüm qərarlar verən AXC-nin varisi olan Azərbaycan Respublikası bu gün də regionun elm və təhsil mərkəzi olaraq inkişaf edib.

Sadəcə olaraq, savadlılıq ən azı bir dildə oxumaq və yazma bacarığıdır. "Savadlılıq həmdə hüquqlarımzdan biridir. Savadlı olmaq fərdi gücləndirmə vasitəsi olaraq, sosial və insan inkişafı üçün bir vasitədir. Hər birimizin təhsil imkanlarıda savadlılıqdan asılıdır. Savadlı olmaq əsas yoxsulluq səviyyəsinin azaldılması, uşaq ölümünün azaldılması, əhalinin gender bərabərliyinə nail olmaq və davamlı inkişaf, sülh və demokratiyanın təmin edilməsi üçün vacibdir.

"Bəzi savadlılıq anlayışı, məktəbə getməmiş böyüklər arasında oxumaq və yazmağın ilk öyrənilməsində istifadə olunur.

**Məlumat xarakterli biblioqrafik kitab icmalı:**




**Yeni uşaq ensiklopediyası : 9000-dən artıq qeydlər, faktlar, məqalələr və 2500 tam rəngli şəkillərdən ibarət. - Bakı : Qanun Nəşriyyatı; "Əli və Nino", 2016. - 296 s.**

Kitabxanada uşaqların coğrafi, tarixi savadlılığının artırılması üçün çoxlu sayda şəkillərlə zəngin "Yeni uşaq ensklopediyası" kitabına səyahət edə bilərik. Kitabla tanış olmaqla oxucular kitabın səhifələrində sirli Kosmosa səfər edə, planetimizin mühitini kəşf edə bilərlər. Başdan-başa oxunaqlı olan bu kitabla onlar faktlar və məlumatlar, xəritələr, izahlı cədvəllər və maraqlı məqalələrlə tanış ola bilərlər. Bu ensklopediya oxuculara yeni biliklər əldə etməyə yaxından kömək edəcək, coğrafi bilikləri əldə etmələrinə böyük töhfə olacaqdır. Kitabxanada oxucular üçün kitab əsasında hazırlanmış əyləncəli *"Elm və biz","Keçmişi oxumaqla gələcəyi yaza bilərik"* adlı kitab icmalı keçirə bilərik.

**Kainatdan danışarkən kitabxanaçı:**

Əziz uşaqlar gəlin görək kainat nədir? Yaşadığımız kainat nələrdən təşkil olunub?

*Zalda qurulmuş monitorda yer kürəsinin əmələ gəlməsi, kainatın yaranmasından bəhs edən videoçarx nümayiş etdirilir.*

**Kitabxanaçı:** Hər birimizin dünya və onun yaranması, bitkilərin inkişaf səbəbləri, Günəşin niyə parlaması, insan orqanizminin necə işləməsi, keçmişdə nələrin baş verməsi haqqında bilikləri öyrənməyə ehtiyacı var. Bunun üçün daha çox mütaliə etmək kifayətdir.

**Elm, bilik, savadlılıq mövzusunda F. Köçərli adına uşaq kitabxanasının fondu əsasında məlumat və biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısı.**

**Kitablarda:**

Elm və helm. - Bakı : Azərbaycan, 2010. - 18 s.
Bilik verən nağıllar : 6-8 yaş üçün. - Bakı : Altun Kitab, 2018. - 64 s.
Seyidov R. Elm və Texnika. İnkişaf tarixi. - Bakı : Ayna Mətbu Evi, 2001. - 80 s.
Xəlilov S. Elmşünaslığa giriş. - Bakı : Azərbaycan Universiteti nəşriyyatı, 2010. - 440 s.

Dövrü mətbuatda

Abbasov İ. İslamda elm və alimin fəziləti // Kaspi. - 2013. - 5 dekabr. - № 232. - S. 15.
33
Abdullayev H. Heydər Əliyev Fondu ölkəmizdə təhsilin, səhiyyənin, elm və mədəniyyətin, idmanın inkişafına, insanların konkret qayğı və problemlərinin həllinə, Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsinə öz töhfəsini verir // Xalq qəzeti. - 2006. - 26 avqust. - S. 2-3.
Ağarzayev S. Bilik mənbəyi olan kitabları qoruyaq // Azərbaycan müəllimi. - 2009. - 13 noyabr. - N 44. - S. 6.
Azərbaycan elmi dinamik iqtisadi inkişafın ön mövqeyinə çıxmalıdır : İctimai və humanitar elmlər : zaman kontekstində baxış // Azərbaycan. - 2010. - 22 yanvar. - N 16. - S. 3-5.
Azərbaycan elminin inkişafına dövlət qayğısı daha da artırılacaqdır : Milli Elmlər Akademiyasının 60 illiyinə həsr olunmuş yığıncaqda Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Xalq qəzeti. - 2005. - 15 dekabr. -S.1,3,4.
Azərbaycan təhsilinin dünya elminə bəxş etdiyi gənc alimlər // Azərbaycan Müəllimi. - 2012. - 18 may. - № 19. - S. 3.
Babaşlı M. İslam dinində elmin əhəmiyyəti // Füyuzat. - 2020.

- № 6. - S. 36-42.
Bağırov R. Elm və təhsilin inkişafı dövlət siyasətinin prioritetləri sırasındadır // İki sahil. - 2017. - 11 iyul. - № 120. - S. 11.
Bəkirova N. Orta əsrlərdə Bakıda elm və təhsil // Mədəniyyət. - 2014. - 5 dekabr. - № 94. - S. 13.
Bəşirov V. Pedaqoji elm, proses və dövri mətbuat // Azərbaycan müəllimi. - 2006. - 21 aprel. - S. 6.
34
Bilik : müdrik sözlər // Füyuzat. - 2009. - N 5(49). - S. 62-63.
Binnətova G. Biliyi şagirdə çatdırmaq doğrudur, yoxsa şagirdi biliyə? // Azərbaycan müəllimi. - S. 5.
Cəfərova T. Elm və təhsilin qüdrətli hamisi: Heydər Əliyev // İki sahil. - 2021. - 7 may. - № 81. - S. 6.
Əhmədov Q. Ziyalısız bir millətin perspektivi yoxdur // Azərbaycan. - 2006. - 1 oktyabr. - S. 2.
Əhmədova L. Xaricdə təhsil və elm // Azərbaycan müəllimi. - 2006. - 23 iyun. - S.8.
Ələkbərov A. Elm və təhsilin vəhdəti insan kapitalının əsasıdır // Azərbaycan : qəzet. - 2016. - 12 fevral. - № 32. - S. 7.
Ələkbərov İ. Elmə dövlət qayğısının bəhrəsi // Respublika. - 2011. - 5 may. - № 93. - S. 3.
Ələkbərov U. Biliklərə əsaslanan tərəqqi // Azərbaycan Müəllimi. - 2013. - 2 avqust. - № 29. - S. 3.
Əliyev M. Heydər Əliyev elm və təhsilin, milli-mənəvi dəyərlərin himayədarı idi // Xalq qəzeti. - 2011. - 27 aprel. - № 89. - S. 7.
Əliyeva İ. Elm milli intibahı təmin edən başlıca vasitədir // Azərbaycan. - 2010. - 19 yanvar. - N 62. - S. 9.
Əliyeva İ. Elmdə islahatlar Azərbaycanın davamlı inkişafına xidmət edir // Azərbaycan. - 2013. - 1 sentyabr. - № 191. - S. 7.
35

Əlizadə A. Azərbaycan regionun elm mərkəzinə çevrilməlidir // Respublika. - 2013. - 3 oktyabr. - № 217. - S. 4.
Əlizadə A. Müasir Azərbaycan elmi inkişafdadır // Azərbaycan : qəzet. - 2016. - 15 oktyabr. - № 227. - S. 5. ; 16 oktyabr. - № 228. - S. 3.
Elm və alim : İslam dinin də, elm və alim mədəniyyəti // Karvan. - 2013. - № 4. - S. 28-29.
Əsədov B. Müqəddəs Quranda nazil olanları elm indi kəşf edir // Azərbaycan. - 2007. - 2 yanvar. - S.8. ; Azərbaycan. - 2007. - 18 fevral. - S.8
Hacıyev İ. Heydər Əliyev və Azərbaycan elminin inkişafı // Xalq qəzeti. - 2016. - 11 may. - № 100. - S. 9.
Hafiz Paşayev: Hər bir təhsil və elm ocağının ürəyi kitabxanadır // Respublika. - 2014. - 2 aprel. - № 64. - S. 3.
Həbibbəyli İ. Elmin gələcəyinə təkan, fasiləsiz təhsilə davam // Azərbaycan Müəllimi. - 2016. - 11 iyun. - № 22. - S. 8.
Hidayətova F. Dünyanın görən gözünə çevrilən dühalar barədə // Azərbaycan məktəbi. - 2013. - № 3. - S. 104-107.
Hüseynov A. Dünya elminin fəxri İbn Sina // Xalq qəzeti. - 2006. - 3 sentyabr. - S.6.
Hüseynov A. Dünya elminin Şərq ulduzları - Əl-Fərabi və Ömər Xəyyam // Xalq qəzeti. - 2006. - 18 iyun. - S.8.
Hüseynov A. Nyuton: Bilik yenilməz qüvvə, sərvət və kapitaldır // Xalq qəzeti. - 2007. - 4 fevral. - S.6.
36
İkramqızı F. Kitab bilik mənbəyidir // İki sahil. - 2013. - 9 oktyabr. - № 190. - S. 13.
İslamda elm // Elli. - 2011. - № 9. - S. 8-9.
Kəlamlar : Elm haq-da müdrik sözlər // Göyərçin. - 2006. - № 3. - S. 2.
Kərimov M. Müqəddəs elm ocağı : Azərbaycan Milli Elmlər Akademiyası haqda // Azərbaycan. - 2005. - 14 dekabr. – S. 5.

Kitab bilik mənbəyidir : məktəb kitabxanaları haqqında // Təhsil problemləri. - 2010. - 01-07 noyabr. - N 77/78. - S. 7.

Mahmudov İ. Elmə, təhsilə. mədəniyyətə göstərilən möhtəşəm qayğı nümunəsi : Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın təhsilə və mədəniyyətə qayğısı // Xalq qəzeti. - 2007. - 13 yanvar. - S. 3.

Məhərrəmov A. Elmin və təhsilin böyük himayədarı : Ümummilli Lider Heydər Əliyev // Respublika. - 2014. - 9 may. - № 96. - S. 4.

Mehrəliyeva N. Elm və kitaba münasibət : Xaqaninin yaradıcılığını araşdırarkən... // Mədəni Həyat. - 2013. - may. - № 5. - S. 62-64.

Məmmədov C. Elm, təhsil və mədəniyyətin himayədarı // Respublika. - 2021. - 11 dekabr. - № 269. - S. 2.

37

Məmmədov N. Elm və mədəniyyətin təbliği dövlətçiliyimizin əsas istiqamətlərindəndir // İki sahil. - 2019. - 13 dekabr. - № 231. - S. 23.

Məmmədov Ş. Elm mübarizlik tələb edir // Azərbaycan. - 2011. - 5 mart. - № 51. - S. 7.

Məmmədov Ş. Mirzə Fətəli Axundzadənin əsərlərində vətənpərvərlik, elm, maarif və məktəb məsələləri // Təhsil problemləri. - 2012. - 16-23 yanvar. - №5/6. - S. 2.

Məmmədova G. Elmin nüfuzunun yüksəldilməsi onun inkişafına təkan verən amillərdəndir // Azərbaycan. - 2010. - 16 fevral. - N 36. - S. 5.

Musaqızı L. Elmimizi necə inkişaf etdirək? // Kaspi. - 2016. - 14 dekabr. - № 206. - S. 14.

Müşfiqə. Zəngin bilik və mədəniyyət xəzinəsi : Azərbaycan Milli Kitabxanası – 99 // Yeni Azərbaycan. - 2022. - 24 may. - №90 . - S. 7.

Mustafa F. Elmdə islahatlara bir addım // Azərbaycan. - 2010. - 28 yanvar. - N 21. - S. 6.

Mustafayev O. Elm, təhsil və innovasiya vəhdətdə // Azərbaycan Müəllimi. - 2017. - 27 oktyabr. - № 41. - S. 1, 3.

Nağıyev F. Elmin və təhsilin tərəqqisi cəmiyyətin, dövlətin inkişafının əsasıdır : İctimai və humanitar elmlər: zaman kontekstində baxış // Azərbaycan. - 2010. - 6 yanvar. - N 2. - S. 2.

38

Niyazov X. Elmimiz : bu gündən sabaha doğru : Azərbaycan alimlərinin birinci qurultayı qarşısında qeydlər // Xalq qəzeti. - 2014. - 18 dekabr. - № 277. - S. 8.

Ömərov V. Elm və mədəniyyətin qarşılıqlı münasibətləri // Səs. - 2014. - 17 aprel. - № 68. - S. 15.

Ömərov V. Elm, mədəniyyət və sivilizasiya // Səs. - 2014. - 18 aprel. - № 69. - S. 15.

Qəmbərov M. Məktəb bilik və tərbiyə ocağıdır // Xalq qəzeti. - 2010. - 19 sentyabr. - N 204. - S. 5.

Qurbansoy H. F. Muğam və orta əsr elmləri // Qobustan. - 2016. - № 2. - S. 70-74.

Rəcəbov O. Elm, təhsil, mədəniyyətin inkişafı diqqət və qayğı tələb edir // Respublika. - 2020. - 9 fevral. - № 28. - S. 3.

Səfərova İ. Ulu öndərin elm və təhsilə qayğısı : Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü // Respublika. - 2011. - 8 may. - № 96. - S. 11.

Siz kimsiniz, Lütfi-Zadə? // Savalan. - 2006. - 8-11 dekabr. - S. 2.

Suvar A. Elm və təhsilin inkişaf etdirilməsi // Palitra. - 2014. - 2 dekabr. - № 219. - S. 13.

Vahabov R. Hər bir millətin tərəqqisinin əsası elmdir // İki sahil. - 2022. - 1 fevral. - № 18. - S. 6.

Vəliyev F. Ağıldan bəla : İnsan, Elm və Təbiət haqqında narahat

fikirlər // Azərbaycan : jurnal. - 2020. - № 5/6. - S. 149-158.
39
Vəliyev F. İslam və elm // Azərbaycan : jurnal. - 2021. - № 9. - S. 121-132.
Xaqaniqızı D. Elm və təhsilin inkişaf etdirilməsi // Təhsil problemləri. - 2014. - 24-30 noyabr. - N 85/86. - S. 4.
Xəlilli Ə. Görkəmli alimlərin həyatından maraqlı dəqiqələr // Təhsil problemləri. - 2007. - 11-20 aprel. - S.7.
Xəlilov S. Bilik, zövq və mənəviyyat // Ədəbiyyat qəzeti. - 2007. - 29 iyun. - S.1, 5.
Xəlilov S. Elm, idelogiya və dövlətçilik şüuru : ictimai və humanitar elmlər : zaman komteksində baxış // Azərbaycan. - 2010. - 11 fevral. - N 32. - S. 6.

**Qüvvət elmdədir, başqa cür heç kəs**
**Heç kəsə üstünlük eyləyə bilməz!**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**